© N.H.Əyyubov, 2011

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏSKUNLAŞMANIN DEMOQRAFİK BAZASININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**N.H.Əyyubov**

*Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*AZ1143, Bakı, H.Cavid prosp., 31*

Məqalədə Azərbaycan ərazisinin məskunlaşmasının demoqrafik bazasının inkişaf xüsusiyyəti təhlil edilmişdir. Şəhər və kənd yerlərinin məskunlaşmasında konkret olaraq təbii və mexaniki artımın rolu araşdırılmışdır. Ümumiyyətlə, təbii artımın və miqrasiyanın dəyişmə tendensiyası sosial-iqtisadi durumun inkişafı ilə qarşılıqlı əlaqədə təhlil edilmişdir. Son illərdə müsbət miqrasiya balansının formalaşdığı və prosesin sosial-iqtisadi inkişaf ilə əlaqədar olduğu müəyyənləşmişdir.

Müəyyən ərazidə, region və ya ölkədə əhalinin yerləşməsi, sıxlığı, məskunlaşması və onların səviyyəsi təbii-coğrafi şəraitlə, təbii ehtiyatlar, texniki tərəqqi ilə əlaqədar olmaqla bərabər, həm də həmin ərazilərinin demoqrafik inkişaf şəraiti və xüsusiyyəti ilə sıx və qarşılıqlı əlaqədədir. Hər hansı bir regionun intensiv demoqrafik inkişafı müvafiq sosial-iqtisadi inkişafla müşayiət olunduqda, bu, əhalinin yerləşməsində də böyük dəyişikliklərə səbəb olur, sıxlığı yüksək olan böyük məskunlaşma areallarının formalaşmasına gətirib çıxarır. Kəndlər qəsəbələrə, qəsəbələr şəhərlərə, şəhərlər aqlomerasiyalara, aqlomerasiyalar meqalopolislərə çevrilir. Uzunluğu 1000, eni isə 10 və 100 km-lə ölçülən kiçikmiqyaslı urbanizasiyalaşmış məskunlaşma arealları formalaşır. Vaxtilə kollektiv təsərrüfatçılığın hökm sürdüyü sosialist düşərgəsi ölkələrində yüksək təbii artım şəraitində kəndlərin ərazi baxımdan böyüyərək bir-biri ilə birləşməsi nəticəsində kənd aqlomerasiyaları yaranmışdır. Doğrudur, son onilliklərdə əhalinin təbii artımının əhəmiyyətli dərəcədə azalmasına, hətta bəzi ölkələrdə təbii artımın mənfi olmasına baxmayaraq, bazar iqtisadiyyatına əsaslanan yeni təsərrüfatçılıq sisteminə keçilməsi kənd məskunlaşma formasının inkişafını ləngitsə də, kənd aqlomerasiyası məskunlaşma sistemində qalmaqdadır.

Əhalinin sıx yerləşdiyi regionlar olan okean və dəniz sahilləri, çay vadiləri və deltaları məhz yüksək demoqrafik potensial hesabına ifrat məskunlaşmışlar. Bu sıx məskunlaşma regionlarının bəzilərində məskunlaşmanın əsas demoqrafik mənbəyi yüksək təbii artım olsa da, digərlərində həm təbii, həm də miqrasiya artımı olmuş və olmaqdadır. Məsələn, əsasən inkişafda olan ölkələrin ərazisində, o cümlədən Cənub, Cənub-Şərqi Asiya ölkələrində məskunlaşmanın əsas demoqrafik mənbəyi təbii artım olmuşdursa, inkişaf etmiş ölkələrdə, o cümlədən Qərbi və Şərqi Avropa ölkələrində, ABŞ və Kanadada məskunlaşmanın əsas demoqrafik mənbəyi miqrasiya artımı olmuşdur. Onu da qeyd etmək lazımdır ki, məskunlaşmanın demoqrafik bazasının formalaşmasında təbii və miqrasiya artımının bu və ya digər dərəcədə rolu həm də məhsuldar qüvvələrin müxtəlif inkişaf səviyyəsi ilə müəyyən olunur. Belə ki, sosial-iqtisadi inkişafın demoqrafik inkişafı qabaqladığı ölkələrdə, regionlarda məskunlaşmanın demoqrafik bazasını həm təbii, həm də mexaniki artım təşkil edir. Məsələn, əksər inkişaf etmiş ölkələrdə belədir. Əksinə, demoqrafik potensialın sosial-iqtisadi inkişafı qabaqladığı region və ölkələrdə məskunlaşmanın demoqrafik bazasını yalnız əhalinin təbii artımı təşkil edir. Hətta təbii artım hesabına formalaşan əhalinin müəyyən hissəsi sosial-iqtisadi inkişafın demoqrafik inkişafı qabaqladığı regionlara gedir, orada yeni məskunlaşma areallarının formalaşmasında iştirak edir, bəzən isə əhəmiyyətli rol oynayır. Təkcə dünyanın böyük regionları, dövlətləri arasında deyil, həm də ölkə daxilində məhsuldar qüvvələrin inkişaf səviyyəsinə və həyat şəraitinə görə aralarında böyük fərqlərin olduğu şəhər yerləri ilə kənd yerləri, dağlıq yerlərlə düzən yerlər həm də məskunlaşmanın demoqrafik bazasının formalaşmasına görə biri-birlərindən çox fərqlənirlər. Bu xüsusilə paytaxt regionları, böyük sənaye mərkəzləri ilə əyalətlər arasında özünü daha qabarıq təzahür etdirir. Demoqrafik bazanın həm təbii, həm də mexaniki artım hesabına formalaşdığı, sosial-iqtisadi bazanın inkişafının

demoqrafik inkişaf tempindən aşağı olduğu böyük sənaye və ya paytaxt regionlarında artan əhalinin sayına, yaş-cins tərkibinə uyğun yaşayış mənzillərinin və digər sosial infrastrukturun olmaması (çatışmaması) elmi ədəbiyyatda "yalançı urbanizasiya" adlandırılır, miqyası heç də kiçik olmayan böyük məskunlaşma areallarının formalaşmasına gətirib çıxarır. Əsasən böyük şəhərlərin ətrafını əhatə edən bu məskunlaşma arealları sosial infrastrukturun inkişafın yenidən qurulmasını çətinləşdirir, ekoloji problemlər yaradır, hətta bəzən cinayətkarlıq yuvalarına çevrilir, sosial partlayışlara səbəb olur.

Azərbaycan Respublikasında da əhalinin məskunlaşmasının demoqrafik bazasını həmişə əsasən yüksək doğum və orta ölüm əsasında formalaşan yüksək təbii artım təşkil etmişdir. Doğrudur, tarixən böyük imperiyalist dövlətlər öz müstəmləkəçilik siyasətlərini həyata keçirmək, Azərbaycanı öz təsir dairələrində saxlamaq, çoxluq təşkil edən yerli aborigen türklərin demoqrafik tərkibdə payını azaltmaq məqsədi ilə ölkə ərazisinə müxtəlif millətləri – erməniləri, fars mənşəliləri, rusları, kürdləri köçürmüşlər. Bu da müəyyən tarixi dövrlərdə məskunlaşmanın demoqrafik bazasının formalaşmasında miqrasiyanın əhəmiyyətli rol oynamasına gətirib çıxarmışdır. Buna baxmayaraq, əhalinin ölkə ərazisində məskunlaşmasında, yerləşməsində, əhali sıxlığının ərazi üzrə müxtəlif olmasında həlledici yeri təbii artım tutmuşdur. Əlbəttə, sosial-iqtisadi həyat şəraitindən, ictimai-siyasi ab-havadan, hərbi-siyasi situasiyadan asılı olaraq əhalinin təbii artım göstəriciləri müxtəlif dövrlərdə müxtəlif olmuşdur. Məsələn, keçən əsrin 60-cı illərinin əvvəlinə kimi təbii artım çoxalmış, ondan sonra isə əhəmiyyətli dərəcədə azalmağa başlamışdır. Bu prosesin mütləq və nisbi göstəricilərinin gedişini 1-ci və 2-ci cədvəllərdə verilən rəqəmlərdən izləmək olar.

Birinci cədvəlin təhlili göstərir ki, əhalinin ümumi təbii artımında şəhər yerləri ilə müqayisədə kənd əhalisi həmişə daha çox rol oynamış və oynamaqdadır. Hətta keçən əsrin 60-cı illərindən başlayaraq, əhalinin ümumi tərkibində şəhər əhalisinin üstünlük təşkil etməsinə baxmayaraq, bu tendensiya dəyişməmişdir. Ümumiyyətlə, 1950-1960-cı illərdə ümumi təbii artımın 61,7%-i, 1961-1970-ci illərdə 61,5%-i, 1971-1980-ci illərdə 54,7%-i, 1981-1990-cı illərdə 52,7%-i, 1991-1995-ci illərdə 55,7%-i, 1996-2000-ci illərdə 61,8%-i, 2000-2005-ci illərdə 59,4%-i, 2006-2008-ci illərdə isə 55,5%-i kənd yerlərinin payına düşmüşdür. Kənd yerlərində artan əhalinin müəyyən hissəsinin şəhərlərə və başqa regionlara miqrasiya etməsinə baxmayaraq, bu yüksək demoqrafik potensial yeni kənd məskunlaşma seasons areallarının yaranmasına, mövcud kəndlərin daxili ərazi ehtiyatlarının daha intensiv istifadəsinə, kəndlərin böyüyərək bir-biri ilə birləşib kənd aqlomerasiyalarının formalaşmasına səbəb olmaya bilməzdi. Kənd yerlərinin yüksək təbii artımının əhəmiyyətli hissəsi şəhərlərin özünün təbii artımı ilə birgə yeni yaranan və mövcud şəhər yaşayış məntəqələrinin demoqrafik potensialını formalaşdırmış, onların inkişafına, ərazicə böyüməsinə zəmin yaratmışdır.

Azərbaycan Respublikası ərazisində əhalinin sıxlığının artmasında, yeni məskunlaşma areallarının, xüsusən şəhər areallarının formalaşmasında, ümumiyyətlə, məskunlaşma prosesinin inkişafında şəhər yerlərinin də təbii artımı əsaslı rol oynamışdır. Kəndlə müqayisədə şəhər yerlərinin təbii artım göstəriciləri nisbətən aşağı olsa da və heç vaxt ümumi təbii artımın 50%-ni keçməsə də, onun payı əhəmiyyətli hesab edilməlidir. Belə ki, ümumi təbii artımın 1950-1960-cı illərdə 38%-i, 1960-1970-ci illərdə 38,5%-i, 1971-1980-ci illərdə 45,3%-i, 1981-1990-cı illərdə 47,3%-i, 1991-1995-ci illərdə 44,3%-i, 1996-2000-ci illərdə 38,3%-i, 2001-2005-ci illərdə 40,6%-i, 2006-2008-ci illərdə 45,5%-i şəhər yerlərinin payına düşmüşdür. Bu təbii artımın mütləq göstəricilərini 1-ci cədvəldə izləmək olar.

Azərbaycan Respublikasında məskunlaşmanın demoqrafik mənbəyinin əsasını təşkil edən təbii hərəkət əmsallarının gedişini isə 2-ci cədvəldəki rəqəmlərə görə izləmək olar. Doğumun, ölümün və təbii artımın ümumi əmsallarının gedişinin təhlili göstərir ki, istər şəhər, istərsə də kənd yerlərində təbii artım həmişə, əsasən, yüksək doğum hesabına formalaşmışdır. Ölüm halları 1950-1960-cı illərdə nisbətən çox olsa da, sonrakı dövrlərdə onun əmsalları cüzi dəyişmiş, təbii artımın formalaşmasına əsaslı təsir etməmişdir. Şəhər yerləri ilə müqayisədə kənd yerlərində həmişə təbii artım daha yüksək olmuşdur. Belə ki, 1950-1960-cı illərdə kənd yerlərində orta hesabla hər 1000 nəfərə düşən təbii artım şəhər yerlərindən 10,3 nəfər, 1961-1970-ci illərdə 13,0 nəfər, 1971-1980-ci illərdə 5,1 nəfər, 1981-1990-cı illərdə 4,9 nəfər, 1991-1995-ci illərdə 5,5

nəfər, 1996-2000-ci illərdə 5,3 nəfər, 2001-2005-ci illərdə 4,2 nəfər, 2006-2008-ci illərdə isə 2,9 nəfər çox olmuşdur. Cədvəl göstəricilərinin müqayisəsindən aydın olur ki, şəhər yerləri ilə kənd yerləri arasında mövcud olan fərq getdikcə azalmaqdadır. Bu da kənd yerlərində əhalinin sosial yetkinlik səviyyəsinin artması və iqtisadi çətinliklərin daha çox olması, müharibə, Ermənistanın 20%-dən çox ərazimizi işğal etməsi, sərhədyanı kəndlərin isə mütəmadi olaraq Ermənistan ordusunun hücumlarına məruz qalması, işsizlik, yanacaqla, elektrik enerjisi ilə zəif təminat və s. amillərlə izah oluna bilər.

Təbii artım göstəricilərinin (1-ci şəkil) illər üzrə gedişinin təhlili göstərir ki, ümumiyyətlə, keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq istər kənd, istərsə də şəhər yerlərinin təbii artımı aşağı düşmüş və indi də düşməkdə davam edir. Ona görə də, təsadüfi deyildir ki, ölkəmizdə demoqrafik prosesləri tənzimləmək üçün Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 noyabr tarixli 4 saylı fərmanı ilə "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" qəbul edilmişdir. Demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi demoqrafik proseslərdə yaranmış neqativ meylləri aradan qaldırmaqla, ölkənin inkişaf strategiyasına uyğun gələn əhalinin kəmiyyət və keyfiyyət artımını təmin etməkdir.

*1-ci cədvəl*

Doğulanlar, ölənlər və təbii artım (nəfər)

| İllər | Doğulanların sayı | | | Ölənlərin sayı | | | Təbii artım | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Bütün əhali | Şəhər əhalisi | Kənd əhalisi | Bütün əhali | Şəhər əhalisi | Kənd əhalisi | Bütün əhali | Şəhər əhalisi | Şəhər əhalisi |
| 1950-1960 | 1385729 | 565175 | 820554 | 297678 | 148435 | 149243 | 1088051 | 416740 | 671311 |
| 1961-1970 | 1639684 | 664179 | 975505 | 316241 | 154906 | 161335 | 1323443 | 509273 | 814170 |
| 1971-1980 | 1454410 | 677429 | 776981 | 383123 | 192473 | 190650 | 1071287 | 484956 | 586331 |
| 1981-1990 | 1765904 | 856242 | 909662 | 443650 | 231300 | 212350 | 1322254 | 624942 | 697312 |
| 1991-1995 | 849411 | 395084 | 454327 | 254475 | 131281 | 123194 | 594936 | 263803 | 331133 |
| 1996-2000 | 619828 | 265571 | 354257 | 234499 | 118437 | 116062 | 385329 | 147134 | 238195 |
| 2001-2005 | 608048 | 273854 | 334194 | 242337 | 125200 | 117137 | 365711 | 148654 | 217057 |
| 2006-2008 | 452995 | 217566 | 235429 | 158613 | 83560 | 75053 | 294382 | 134006 | 160376 |

Cədvəl "Azərbaycanın əhalisi", 2009, DSK, Bakı, səh.24 məlumatları əsasında tərtib olunmuşdur.

*2-ci cədvəl*

Azərbaycanda doğumun, ölümün və təbii artımın orta ümumi əmsalları

| İllər | Əhalinin hər 1000 nəfərinə | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Doğulanların sayı | | | Ölənlərin sayı | | | Təbii artım | | |
| | Bütün əhali | Şəhər əhalisi | Kənd əhalisi | Bütün əhali | Şəhər əhalisi | Kənd əhalisi | Bütün əhali | Şəhər əhalisi | Kənd əhalisi |
| 1950-1960 | 37,67 | 32,2 | 41,6 | 8,1 | 8,6 | 7,7 | 29,0 | 23,6 | 33,9 |
| 1961-1970 | 35,8 | 29,2 | 42,3 | 6,8 | 6,8 | 6,9 | 29,0 | 22,4 | 35,4 |
| 1971-1980 | 25,4 | 22,7 | 28,3 | 6,7 | 6,4 | 6,9 | 18,7 | 16,3 | 21,4 |
| 1981-1990 | 26,4 | 24,0 | 29,2 | 6,6 | 6,5 | 6,8 | 19,6 | 17,5 | 22,4 |
| 1991-1995 | 23,1 | 20,4 | 26,2 | 6,9 | 6,7 | 7,1 | 16,2 | 13,6 | 19,1 |
| 1996-2000 | 15,9 | 13,3 | 18,8 | 6,0 | 5,9 | 6,1 | 9,9 | 7,3 | 12,6 |
| 2001-2005 | 15,8 | 13,8 | 17,8 | 6,1 | 6,2 | 6,0 | 9,7 | 7,6 | 11,8 |
| 2006-2008 | 17,9 | 16,6 | 19,2 | 6,2 | 6,4 | 6,1 | 11,7 | 10,2 | 13,1 |




**1-ci şəkil**. Azərbaycan Respublikasında əhalinin ilin əvvəlinə olan təbii artımları

Bu məqsəddən irəli gələn əsas dövlət vəzifələri aşağıdakılardır:

– əhalinin kəmiyyət və keyfiyyət baxımından normal təkrar istehsalı üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək hərtərəfli şəraitin yaradılması;

– ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyat şəraitinin yaxşılaşdırılması hesabına orta ömür müddətinin uzadılması;

– nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması;

– ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcək üçün perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi;

– respublikanin sosial-iqtisadi, siyasi və demoqrafik mənafelərini rəhbər tutaraq ölkə ərazisində, o cümlədən sərhəd rayonlarında və işğal edilmiş rayonlarda əhalinin məskunlaşmasının yaxşılaşdırılması və demoqrafik potensialının artırılması üçün şəraitin yaradılması;

– ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və müdafiəsi, sağlam həyat tərzinin formalaşmasının normalara uyğun tənzimlənməsi.

Əhalinin məskunlaşmasının əsas demoqrafik mənbəyi təbii artım olsa da, kənd yerləri ilə şəhər yerləri arasında müəyyən fərqlər də mövcud olmuşdur. Belə ki, kənd yerlərində əhalinin məskunlaşmasında, müxtəlif səviyyəli əhali sıxlığı areallarının yaranmasında əsas mənbə təbii artım olsa da, şəhər yerlərində, xüsusilə də orta, böyük və iri şəhərlərdə bu prosesdə həm təbii, həm də miqrasiya artımı əhəmiyyətli rol oynamışdır. Bununla belə, ümumiyyətlə, bütün respublika üzrə məskunlaşmanın əsas demoqrafik mənbəyi təbii artım olmuş, hətta onun əhəmiyyətli hissəsi ölkədən kənara miqrasiya etmişdir. Belə ki, 1950-1960-cı illərdə ümumi təbii artımın 131,3 min nəfəri və ya 12,1%-i, 1960-1970-ci illərdə 22 min nəfəri və ya 1,7%-i, 1070-1980-ci illərdə 74,1 min nəfəri və ya 6,9%-i, 1980-1990-cı illərdə 304,7 min nəfəri və ya 23,0%-i, 1990-1995-ci illərdə 83,3 min nəfəri və ya 14%-i, 1995-2000-ci illərdə 12,3 min nəfəri və ya 3,2%-i, 2000-2005-ci illərdə 34,7 min nəfəri və ya 9,5%-i ölkədən kənara getmişdir. Ümumiyyətlə, 1950-2000-ci illəri əhatə edən XX əsrin ikinci yarısında 627,7 min nəfər və ya ümumi təbii artımın 10,4%-i qədər əhali Azərbaycan Respublikasından başqa ölkələrə və ya regionlara getmişdir.

Müxtəlif dövrlərdə təbii artım hesabına formalaşan əhalinin müəyyən hissəsinin müxtəlif miqdarda kənar ərazilərə miqrasiyası əhalinin sosial-iqtisadi həyat şəraiti, ictimai-siyasi ab-hava, hərbi durum və s. ilə əlaqədar olmuşdur. Bu prosesə daha çox isə artan işçi qüvvəsinin sayına və tərkibinə uyğun iş yerlərinin olmaması və çatışmaması səbəb olmuşdur.

Əgər 2005-ci ilə kimi Azərbaycan Respublikası üçün təbii artımın müəyyən hissəsinin ölkədən kənara çıxması əhalinin təbii təkrar artımı, yaş-cins tərkibinin pozulması, əmək ehtiyatlarının çatışmaması, demoqrafik qocalma və s. kimi neqativ hallarla müşayiət olunurdusa və ümumdövlət mənafeyi baxımından yaxşı deyildisə, ölkənin bir sıra regionları, xüsusilə də sərhəd rayonları üçün bu, çox təhlükəli meyil idi. Onu da qeyd etmək lazımdır ki, sərhəd və dağlıq rayonlardan orta respublika səviyyəsi ilə müqayisədə daha çox əhali kənarlara miqrasiya edirdi. Xüsusilə də Ermənistan ordusunun daim təcavüzü, tez-tez sərhəd kəndlərini atəşə tutması, təsərrüfatçılıq fəaliyyətinin təhlükəli olması, dağlıq rayonlarda isə sərt təbii şərait, iş yerlərinin məhdudluğu, yanacaq və enerji ilə xeyli zəif təminat və s. səbəbdən artan və mövcud demoqrafik potensialın əhəmiyyətli hissəsi bu yerləri tərk edirdi. Onlarla sayda kəndin əhalisi azalır, bəzi kənd yaşayış məntəqələri isə, ümumiyyətlə, boşalır, demoqrafik tərkibdə qocalma prosesi gedirdi. Əhalinin tərkibində yaşlı əhalinin payı artır, cavanların və uşaqların payı isə azalırdı. Ona görə də birinci növbədə sərhəd kəndlərin, rayonların demoqrafik potensialının yerlərdə qalmasına nail olmaq işlərinə başlandı. Güzəştli sosial-iqtisadi tədbirlər hesabına əhalinin yerlərdə saxlanılmasına nail olundu. Məsələn, müxtəlif vergilərdən azad olunma, uzunmüddətli güzəştli kreditlərin verilməsi, yanacaq və elektriklə təminatın nisbətən ucuz və davamlı olması, yeni əməktutumlu iş yerlərinin yaradılması və s. bu yönümlü tədbirlərdir.

*3-cü cədvəl*

Azərbaycan Respublikasında əhalinin təbii və miqrasiya artımları (azalmaları), min nəfər

| İllər | Əhalinin sayı | Dövr ərzində ümumi artım | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Təbii | Miqrasiya |
| 1950 | 2858,9 | | | |
| 1960 | 3815,7 | 956,8 | 1088,1 | −131,3 |
| 1970 | 5117,1 | 1301,4 | 1323,4 | −22,0 |
| 1980 | 6114,3 | 997,2 | 1071,3 | −74,1 |
| 1990 | 7131,9 | 1017,6 | 1322,3 | −304,7 |
| 1995 | 7643,5 | 511,6 | 594,9 | −83,3 |
| 2000 | 8016,5 | 373,0 | 385,3 | −12,3 |
| 2005 | 8347,5 | 331,0 | 365,7 | −34,7 |
| 2009 | 8896,9 | 549,4 | 303,3 | +246,2 |




**2-ci şəkil.** Azərbaycan Respublikasında əhalinin ilin əvvəlinə olan miqrasiya artımları

Artıq Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramının birinin (2004-2008-ci illər) həyata keçirilməsi, ikincinin (2009-2013-cü illər) isə icrasına başlanması, ölkə iqtisadiyyatının dinamik inkişafı və iqtisadi böhrana dünya ölkələri ilə müqayisədə zəif məruz qalması əhalinin miqrasiya balansının müsbətə doğru dəyişilməsinə səbəb oldu (2-ci şəkil). 2005-2009-cu illəri əhatə edən dövrdə bütün əvvəlki dövrlərlə müqayisədə ilk dəfə əhali sayının formalaşmasında müsbət miqrasiya balansı əhəmiyyətli rol oynamış oldu. 3-cü cədvəldən göründüyü kimi, bu göstərici müqayisə dövründə 246,2 min nəfər təşkil etdi. Bu, həm də 2003-cü ildə qəbul edilmiş, yuxarıda adı çəkilən Demoqrafiya sahəsində Dövlət siyasətinin həyata keçirilməsinin əməli nəticəsi idi.

Beləliklə, uzun müddət Azərbaycanda məskunlaşmanın demoqrafik bazasını həmişə təbii artım təşkil etmiş, hətta təbii artımın əhəmiyyətli hissəsi ölkədən kənara çıxmış, ölkədən kənar məskunlaşma areallarının formalaşmasında rol oynamışdır. Ölkənin urbanizasiyalaşmış ərazilərində isə bu prosesdə həm təbii, həm də mexaniki artım iştirak etmişdir. Kənd məskunlaşma sisteminin formalaşmasında isə yalnız nisbətən yüksək təbii artım rol oynamışdır. Son illərdə isə artıq bu prosesdə müsbət miqrasiya balansı da rol oynamağa başlamışdır.

## ƏDƏBİYYAT

AZƏRBAYCANIN ƏHALİSİ. 1997, 2000. Bakı. DSK.

AZƏRBAYCAN RESPUBLIKASI ƏHALISİNİN 1999-cu il siyahiya alinmasinın yekunları. 1999. I, 565.

BUDAQOV, B.Ə. (redaksiyası altında). 1999. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. Bakı. Elm. II, 246.

ƏYYUBOV, N.H. 2008. Azərbaycanda əhali məskunlaşmasının təkmilləşdirilməsinin iqtisadi-coğrafi problemləri. *AMEA Xəbərləri, Yer elmləri,* 1.

MEHRƏLİYEV, E.Q., ƏYYUBOV, N.H., SADIQOV, M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Bakı. 192.

***Məqaləyə c.e.d. E.K.Əlizadə rəy vermişdir***